# Müasir Azərbaycanın uğurları Heydər Əliyev strategiyasının təntənəsidir

Görkəmli Alman filosofu Hegel qeyd edirdi ki, böyük şəxsiyyətlərin əsas missiyası dövrünün inkişafının növbəti mərhələsini başa düşmək və bunu özünün əsas məqsədinə çevirmək və ona çatmaq üçün bütün enerjisini istifadə etməkdir. 1840-cı ildə nəşr olunan "Qəhrəmanlar və tarixdə qəhrəmanlıq" əsəri ilə şəxsiyyətin tarixdə rolu ilə bağlı öz müasirlərinin və gələcək nəsillərin baxışlarına böyük təsir göstərən ingilis filosofu Tomas Karleyl yazırdı ki, bəşər tarixi böyük şəxsiyyətlərin bioqrafiyasından ibarətdir. Hər iki yanaşmanın kontekstində biz ümummilli lider Heydər Əliyevin fəaliyyətini, onun missiyasını təhlil edə, dəyərləndirə bilərik. Ümummilli lider Heydər Əliyevinin dühasının böyüklüyü onda ifadə olunurdu ki, o, həm tarixi yaradan, həm də tarixin önə çıxardığı dahi şəxsiyyət kimi xarakterizə oluna bilər. Azərbaycanın çağdaş tarixinin ən əhəmiyyətli uğurlarının böyük hissəsi Heydər Əliyev şəxsiyyəti, onun fəaliyyəti ilə bağlıdır. Bəşər tarixində ömrü xalqının taleyi ilə bu qədər sıx bağlaşmış, bir-birini tamamlayan çox az sayda lider göstərmək olar.

"Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" - deyən, Heydər Əliyevin bütün fəaliyyəti xalqla, Azərbaycan dövləti ilə bağlı olub.

Onun 1969-1982-ci illərdə hələ SSRİ-nin tərkibində olan Azərbaycanın rəhbəri kimi gördüyü işlər xalqın yaddaşının özünə qayıdışı, milli özünüdərkin, milli ruhun hədsiz yüksəlişinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Bu illərdə Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində Azərbaycanda coşqun quruculuq işlərinə başlandı, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi.

Heydər Əliyev Azərbaycan xalqının müstəqillik yolunda qarşılaşacağı çətinlikləri hələ o dövrlərdə görür, sovet totalitar rejiminin sərt təzyiqlərinə baxmayaraq bu günümüz üçün ən qlobal problemləri məharətlə həll edir, ölkəmizin siyasi və iqtisadi müstəqilliyinə şərait yaradır, Azərbaycanın strateji maraqları naminə ciddi addımlar atmaqla bugünkü dövlət müstəqilliyimizin möhkəm təməlini qoyurdu. Azərbaycanın bugünkü zəngin elmi, iqtisadi, mədəni, kadr potensialının təməlində Heydər Əliyevin həmin illərdə apardığı milli quruculuq işləri dayanır. Elmə, təhsilə xüsusi diqqət yetirən ulu öndər 70-ci illərdə hər il iki min nəfərə qədər gənci müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ayrı-ayrı şəhərlərinə göndərirdi. Həmin illərdə bir çox çətinliklər bahasına Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılması böyük hadisə adlandırmaq olar. Ümummilli liderimiz Azərbaycanın müstəqilliyinə inandığı üçün gələcək dövlətimizin hərbi potensiala ehtiyacını nəzərə alıb bu addımı atmışdı. Hadisələrin sonrakı inkişafı bu dahi şəxsiyyətin uzaqgörənliyini bir daha sübut etdi. Müstəqil dövlətin gənc ordusu məhz həmin məktəbin yetirdiyi hərbi kadrların bilik və təcrübəsi sayəsində formalaşmağa başladı. 1969-1982-ci illər Azərbaycanda çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi. Vətənini, xalqını hədsiz məhəbbətlə sevən böyük öndərimizin bilavasitə şəxsi təşəbbüsü ilə müasir Azərbaycan memarlığının şah əsərləri sayılan və respublikamızın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan saraylar, özünün görkəmi ilə şəhərə gözəllik verən neçə-neçə möhtəşəm binalar, xalqımızın tarixində mühüm rol oynamış şəxslərə, ədəbiyyat və incəsənət xadimlərinə əzəmətli abidələr ucaldılmışdır. Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin gələcəyə hesablanmış strateji proqramında Azərbaycan dili ayrıca diqqət mərkəzində idi. Həmin dövrdə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətin nəticəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdu.

1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyini elan etməsinə baxmayaraq, respublika müstəqilliyi deklarativ xarakter daşıyırdı. Dövlətçiliyin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını sarsıdan bir çox sosial-mənəvi problemlər meydana çıxmışdı. Respublikada qanunçuluğun, hüquq qaydalarının son dərəcə zəif olması, dövlət idarəçiliyinin iflic vəziyyətə düşməsi, siyasətçilərin "könüllü döyüşçü" adı altında qanunsuz silahlı dəstələr yaratması nəticə etibarilə hakimiyyətdə olan qüvvələrin iflasını daha da sürətləndirirdi. Bir tərəfdən məmur özbaşınalığı və dövlətin o zamankı rəhbərinə tabe olmamaları nəticəsində hakimiyyət böhranının dərinləşməsi, digər tərəfdən isə ölkənin cənubunda və şimalında separatçıların məkrli niyyətlərlə baş qaldırması ölkədə gərgin vəziyyət yaratmışdı. Belə bir böhranlı və ağır vəziyyətdə xalqın çıxış yolunu yenə də müdrik rəhbərin - ulu öndər Heydər Əliyevin hakimiyyət sükanı arxasına keçməsində görməsi obyektiv reallıqlarla şərtlənirdi. Ümummilli liderin 1993-cü il iyunun 9-da xalqın təkidli tələbinə səs verərək Bakıya qayıtması isə onun nə qədər qətiyyətli, prinsipial, xalqının taleyinə biganə qalmayan fenomen şəxsiyyət olduğunu bir daha təsdiqləyir.

Həmin illərdə respublikaya rəhbərlik edənlərin səriştəsizliyi nəticəsində iqtisadiyyat da bütünlüklə iflasa uğramışdı. 1993-cü ildə inflyasiya dəhşətli dərəcədə yüksələrək 1250 faiz təşkil edirdi. Yalnız 1998-ci ildə Azərbaycanda inflyasiyanın səviyyəsini 99,2 faizə endirmək mümkün olmuşdur. 1992-ci ildə AXC-Müsavat iqtidarı xarici kapital qoyuluşuna demək olar ki, heç bir diqqət yetirməmişdi. 1993-cü ildə Azərbaycanda kapital qoyuluşu 317 milyon dollar təşkil edirdisə, bu rəqəm artıq 1998-ci ildə 1 milyard 400 milyon ABŞ dollarına çatmışdı. Siyasi və iqtisadi böhran nəticəsində 1991-1994-cü illərdə ümumi daxili məhsul orta hesabla 20-25 faiz azalırdısa, 1996-ci ildə bu göstərici 39 faiz artmışdı. Eyni zamanda, 1991-1993-cü illərdə sənaye məhsulunun istehsalı orta hesabla 20-24 faiz azalmışdı. Xarici ticarət dövriyyəsi 1993-cü ildəki 1 milyard 300 milyon dollardan, 1994-cü ildə 1 milyard 400 milyon dollara, 2000-ci ildə isə artıq 2 milyard 900 milyon dollara çatmışdı. Eyni zamanda, 1993-cü ildə büdcə 682 milyon manat təşkil edirdisə, 2001-ci ildə büdcəni 6-7 dəfə artırmaq mümkün olmuşdur.

1993-cü ildən keçən qısa zaman kəsiyi Heydər Əliyev şəxsiyyətinin qüdrətini, onun öz xalqının və milli dövlətçiliyin keşiyində duran, Azərbaycan varlığının müdhiş uçurumdan xilas edən müdrik strateq olduğunu artıq təsdiq etmişdir. Son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə doğma xalqı üçün, el-obasından ötrü sabitlik yaratması, atəşkəsə nail olmaqla millətin sağlam qüvvələrini - genofondunu məhv olmaqdan qoruması, xaos və siyasi hərc-mərclik içərisində çabalayan, etnik-siyasi və vətəndaş qarşıdurmasının başlandığı, dövlət müstəqilliyinin itirilməkdə olduğu Azərbaycanı uçurum həddindən çıxarıb hüquqi, demokratik və dünyəvi dövləti uğurla qurduğu indiki inkişaf səviyyəsinə çatdırması, xarici siyasət sahəsindəki mühüm nailiyyətlər, o cümlədən Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın təcavüzə məruz qalan, Ermənistanın isə təcavüzkar olduğunun sübuta yetirilməsi, bununla da erməni millətçilərinin ölkəmizə qarşı yaratdığı informasiya blokadasının yarılması, nəhayət, Azərbaycan Respublikasının Avropa Şurasına qəbul olunması və müstəqil dövlətimizin dünya birliyində öz layiqli yerini tutması və digər inkarolunmaz reallıqlar bir tərəfdən xalqımızın 1993-cü ildəki seçiminin nə qədər müdrik tarixi addım olduğunu sübut edirsə, digər tərəfdən də, Heydər Əliyevin tarixin məhvərini öz əlində saxlayan və zamanı qabaqlamağı bacaran nadir siyasi şəxsiyyət və dövlət xadimi olduğunu təsdiqləyir.

Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi. Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının qorunması məqsədilə həyata keçirilən hüquqi islahatlar içərisində ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər planı olmuşdur. 1993-cü ildə Heydər Əliyevin ilk qərarlarından biri məhz ölüm cəzasının tətbiqi üzərində moratorium qoyulması oldu.

1995-ci il noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edilmiş, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə xeyli tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər sırasında Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasını xüsusi qeyd etmək lazımdır. Bu komissiya xalqımızın dövlətçilik tarixində yaratdığı ənənələri qorumaqla inkişaf etmiş dövlətlərin hüquq islahatları ilə bağlı təcrübəsindən də bəhrələnmişdir.

Hüquq islahatları sahəsində çox əhəmiyyətli sənədlərdən biri də Heydər Əliyevin 1996-cı il iyunun 8-də imzaladığı "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" sərəncamdır. Bu sənədə əsasən beynəlxalq standartlara uyğun "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında" qanun və digər hüquqi sənədlərin layihələri hazırlanıb Milli Məclisdə müzakirə edilmiş və müvafiq qaydada qəbul olunmuşdur.

Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralovun "Azərbaycan" qəzetinin sentyabr 2017-ci il tarixli sayında dərc olunmuş "Hüquq sisteminin inkişafında prokurorluğun rolu əhəmiyyətlidir" adlı məqaləsində qeyd edilir ki, "Ümummilli lider Heydər Əliyevin 26 aprel 2000-ci il tarixdə prokurorluq orqanlarının rəhbər vəzifəli şəxsləri ilə keçirdiyi müşavirədə prokurorluğun fəaliyyətində əvvəllər mövcud olmuş nöqsanların aradan qaldırılmasına, zəruri tədbirlərin həyata keçirilməsinə dair proqram xarakterli nitqindən irəli gələn tövsiyə və göstərişlərin yerinə yetirilməsi ilə əlaqədar aparılmış geniş və dərin məzmunlu islahatlar nəticəsində Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tam yenidən qurularaq demokratik məzmunlu prinsip və metodlardan istifadə etməklə mütərəqqi normativ hüquqi baza əsasında fəaliyyət göstərən sivil, çevik və işlək dövlət təsisatına çevrilmişdir. Həyata keçirilmiş hərtərəfli islahatlar nəticəsində mövcud olmuş nöqsan və çatışmazlıqların aradan qaldırılmasına, prokurorluğun sıralarının saflaşdırılmasına, müasir tələblər səviyyəsində işləmək iqtidarında olan yüksək peşə hazırlıqlı, qabiliyyətli və bacarıqlı kadr tərkibinin formalaşdırılmasına, xalqın və dövlətçiliyin maraqlarına üstünlük verilməklə qanunçuluq, obyektivlik, qərəzsizlik və faktlara əsaslanma, prokurorluğun fəaliyyətinin digər mühüm prinsiplərinə ciddi əməl edilməsinə nail olunmuşdur. Prokurorluğun rolunun artırılması istiqamətində görülən tədbirlər içərisində bu dövlət orqanına qanunvericilik təşəbbüsü hüququnun verilməsinin hüquq sisteminin inkişafına müsbət təsiri olmuşdur!".

Hər ilin oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə bizə bəxş edilmişdir. Milli prokurorluq orqanlarının yaranması tarixinin 1 oktyabr 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının qərarı ilə Bakı Dairə Məhkəməsinin nəzdində prokurorluğun təsis edildiyi gündən hesablanmasına baxmayaraq, bu mühüm dövlət təsisatının dünya standartları və müasir tələblərə cavab verən, konstitusion statusa malik, yüksək nüfuzlu orqan kimi formalaşması, ölkənin hüquq sisteminin inkişafında əhəmiyyətli rola malik olması məhz ulu öndər Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi məhkəmə hüquq islahatları və hərtərəfli dövlət qayğısı nəticəsində mümkün olmuşdur.

Ümummilli liderin müəyyənləşdirdiyi inkişaf kursu bu gün onun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu inkişaf kursu kontekstində Azərbaycan Prokurorluğu daha da təkmilləşərək müasirləşir. Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralovun qeyd etdiyi kmi hazırda Azərbaycan Respublikasının prokurorluq orqanlarının fəaliyyətinin cənab İlham Əliyev tərəfindən irəli sürülən tələblərə müvafiq olaraq müasir dövrün standartlarına uyğun keyfiyyətcə yeni səviyyədə qurulması üçün çoxsaylı tədbirlərin həyata keçirilməsi işi uğurla davam etdirilir.

Azərbaycanın prokurorluq orqanlarının əməkdaşları möhtərəm Prezidentin rəhbərliyi altında reallaşdırılan dövlətçilik siyasətini hərtərəfli dəstəkləyərək cənab İlham Əliyevin inamını və etimadını şərəflə doğrultmaq üçün əlindən gələni etməklə dövlətçiliyimizin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində və xalqına xidmətdə yeni-yeni müvəffəqiyyətlər qazanmağa çalışır və bundan sonra da bu istiqamətdə inamla fəaliyyət göstərəcəkdir.

**Məqsəd ORUCOV,**
**Qəbələ rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**